NƏSİB L.NƏSİBLİ

# İRANDA AZƏRBAYCAN MƏSƏLƏSİ
## (XX əsrin 60–70-ci illəri)

qanun nəşriyyatı

Monoqrafiyada XX əsrin 60–70-ci illərində Cənubi Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyəti araşdırılır. Ağ inqilab deyilən islahatların iqtisadiyyata, sosial həyata, demoqrafik duruma gətirdiyi dəyişikliklər, bu dəyişikliklərin 1979-cu il İslam inqilabı ilə nəticələnməsi süreci təhlil edilir. Cənubi Azərbaycanın ölkə iqtisadiyyatı, sosial-demoqrafik strukturda yeri rəsmi statistik materiallar əsasında izlənilir. Bu ölkədə Azərbaycan/Türk məsələsinin bugünkü durumunu anlamaq üçün 1960–70-ci illərdəki proseslərin özəlliklərini nəzərə almaq gərəkdir. Mütəxəssislər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

*Güney Azərbaycanın azadlığı uğrunda mübarizə aparan fədakar insanlara*

# İÇİNDƏKİLƏR

Dəyişən dünyada dəyişməyən Güneyimiz ..................7
Giriş..............................................................................15

**Birinci fəsil. İqtisadi durum**
1. Kənd təsərrüfatının durum .....................................31
2. Sənayenin inkişaf xüsusiyyətləri.............................57

**İkinci fəsil. Sosial-demoqrafik proseslər**
1. Sosial-sinfi strukturda dəyişikliklər ........................87
2. Demoqrafik durum...............................................115

**Üçüncü fəsil. İdeologiya və mədəniyyət sahəsində şah rejiminin siyasəti**
1. Azərbaycan əhalisi arasında paniranizm, fars şovinizmi və monarxizm ideyalarını yaymaq siyasəti.......................................................133
2. Mədəniyyət və təhsil sahəsində siyasət................153

**Dördüncü fəsil. Şah rejiminə qarşı siyasi mübarizə**
1. Əhalinin sosial və maddi durumunda dəyişikliklər ..........................................175
2. Siyasi mübarizənin xüsusiyyətləri ........................196

**Nəticə ..............................................................216**
**Biblioqrafiya ...................................................223**
**Əlavələr ............................................................236**
**İndeks ..............................................................265**

# DƏYİŞƏN DÜNYADA DƏYİŞMƏYƏN GÜNEYİMİZ

1980'lərdən bəri, ümumiyyətlə dünyada, özəlliklə bölgəmizdə çox şeylər dəyişdi. *Sovet Sosialist Respublikaları İttifaqı* adlı şər imperiyası dağıldı. Başqa çoxmillətli dövlətlər də çökdü. Yeni-yeni milli dövlətlər yarandı. 19. əsr Avropası üçün xarakterik olan millət-dövlət quruculuğu prosesi Şərqi Avropaya keçdi. İndi bu sürəc Orta Doğuda tam sürətlə yoluna davam etməkdədir.

Mirzə Cəlil rəhmətlik 1917'də məşhur *Azərbaycan* məqaləsində yazırdı: "Dünyavü aləm dəyişildi, mənalar özgə təbir əxz elədi", yəni bizim dilcə söyləsək, o şeylər ki əsl mənalarını itirmişdi, qayıdıb əslini tapdı…, amma buna hamı nail oldu ki, vətən, vətən, vətən; dil, dil, dil; millət, millət, millət!.. Dəxi bu dairələrdən kənar bəni-növibəşər üçün nicat yolu yoxdur. "Buradaca öz vətəni, öz dili, öz milləti istiqamətində Güneylilərimizdə tərpənişlərin olmadığını görüb onları qeyrətə çağırır: "Ay torpaq çörəyi yeyən təbrizli qardaşlarım, ay keçəpapaq xoylu, meşkinli, sərablı, coruslu və moruslu qardaşlarım, ay bitli marağalı, mərəndli, gülüstanlı qulibiyaban vətəndaşlarım, ey vəhşi ərdəbilli, qəlxanlı bəradərlərim! Gəlin, gəlin, gəlin… biz də bir dəfə oturaq və keçə papaqlarımızı ortalığa qoyub bir fikirləşək

görək haradır bizim Vətənimiz". Üstündən 106 il keçəndən sonra bu sözlər yenə də güncəldir. Yenə özünüdərk – milli kimlik məsələlərində problemlər yaşanmaqdadır. Bunun nəticəsi olaraq da çoxmilyonlu, amma məzlum millət statusu Güneyli çoxluq üçün məqbul sayılır.

Güneyin statusunda dəyişiklik olmadı. Yəni Tehranda hakimiyyət dəyişdi. Pəhləviləri yeni İslam Cümhuriyyəti rejimi əvəz etdi. Amma yeni ümidlər də yenə suya düşdü. Tehranın Türkə düşmənliyini 100 ildən çoxdur bilirik, lənətləyirik. 21. əsrin anaxronizmlərindən biri sayırıq. Bu məsələnin bir tərəfi.

Tehranda hakimiyyətin şəkli dəyişsə də mahiyyəti dəyişmədi dedik. Hətta daha iddialı bir fikri vurğulayaq: Tehranın Azərbaycan siyasəti özü-özlüyündə heç dəyişməyəcək də! Demək Tehrandan mədəd ummağın anlamı yoxdur məntiqi ortaya çıxır. Qalır məsələnin o biri tərəfi – millətimizin zəifliyi, milli haqlarına sahib çıxa bilməməsi daha önəmli məsələdir, bizcə. Hələ ki öz zəifliyimizi ortaya çıxardıb, bu zəifliyi aradan qaldırmağa həvəsli deyilik. Qarşı tərəfi (Fars irqçiliyini) asıb-kəsməklə işimizi bitmiş hesab edirik. Uzaq 1980'lərdə, namizədlik işinin müzakirəsi zamanı eyni yanaşma ilə qarşılaşmışdıq. 1960–70'lərdə soydaşlarımızın xeyli hissəsi arasında "İranlılaşma" meyilinin güclü olması tezisinə etiraz edən həmkarlarımız vardı. Sonrakı gedişat bu tezisin ("İranlılaşma" meylinin) doğruluğunu, təəssüflər olsun, sübut etdi.

Həssas əskiklərimizdən biri də milli hərəkat qəhrəmanlarının ideallaşdırılması, onların strateji, hətta taktik səhvlərə "yol verə bilməməsi" fikridir. Aşağı-yuxarı 100 ildən artıq tarixi olan milli hərəkatın hələ də qalib gəlməməsinin səbəblərini yalnız qarşı tərəfin Azərbaycana və Türklüyə münasibətdə uyğuladığı irqçi siyasətlə izah etmək alışqanlığı vardır. Amma yanlışdır. Çünki milli hərəkata, ya onun qəhrəmanlarına "toz qondurmamaq" bu hərəkatın dərinləşməsinə və sonda qalib gəlməsinə xidmət etmir.

Yazılarımızda dəfələrlə vurğuladıq, yenə təkrar edək. Təhlillərimizdə soyuqqanlı, obyektiv olmasaq, gəldiyimiz nəticələr və verdiyimiz tövsiyələr də gerçəkçi olmayacaq. Gərəksiz olması bir yana, bizi yanlış yola sürükləyəcək.

Son illərdə davamlı olaraq vurğuladığımız bir başqa fikri də *İranda Azərbaycan məsələsi* dediyimiz məsələnin keçmişi, indisi və gələcəyinə aid etmək gərəkdir. Milli kimlik məsələsini çözməmiş millət, həyati problemlərini çözməyə qadir deyildir. Demək ki, bu kimlik/şüur məsələsi milli hərəkatın motorudur. Bu sahədə, kimlikdə problem varsa, hərəkat irəliləmir. Bunu başqa millətlərin tarixində də gördük, öz millətimizin həyatında da görməkdəyik.

*Kimlik* demək təkcə etnik mənsubiyyət, özünü bəlli bir etnik birliyin üzvü sayma, ona aid olma şüuru deyildir. Bu önəmlidir, amma yetərli deyildir. Çoxmillətli

ortamda ətraf ona "Türk" deyir, dövlət bunu belə çox görür, "Azəri" uydurması ilə onu özünə bağlamağa çalışır. Nə ad qoyurlarsa qoysunlar, bu ayrışma enində-sonunda soydaşlarımızın çoxunda təəssüb hissinin yaranmasına nədən olur. Amma təəssüb – aid olduğuna bağlılıq hissi hələ milli şüur deyildir.

Milli şüurun/kimliyin digər önəmli komponentlərini/biləşənlərini qısaca ələ alaq.

Aid olduğu millətin keçmişini rəsmi İran tarixindən kənarda görə bilməyən şəxs elə dediyimiz "İranlı"dır. Tarix şüurunun millət olmaq üçün əhəmiyyətini fikir böyüklərimiz çoxdan idrak etmişdilər. Əli Bəy Hüseynzadə-Turan 119 il öncə soydaşlarının *tarix şüurunun* yoxluğundan şikayətçi idi. *Türklər Kimdir və Kimlərdən İbarətdir?* başlıqlı klassik məqaləsində tarixi keçmişlə bağlı məsələlərlə indi deyil, "bir neçə əsr əvvəldən" məşğul olmaq lazım idi və onu gələcəyə saxlamaq doğru deyildir deyir. O da həqiqətdir ki, milli tarix məsələsi "bir, ya iki fərdin işi deyildir", bu problemin həlli üçün "darülfünunlar, məclislər, cəmiyyətlər mövcud olmalı". Quzeydə Çarlıq/Sovet, Güneydə Pəhləvi/Xomeyni dönəmlərində dramatik siyasi tariximiz bu problemi çözməyə imkan vermədi. Bu bir yana, yadlar bizə saxta və yalan tezislər sırıdılar.

Hüseynzadə-Turan eyni məqaləsində tarixi qəhrəmanların millətləşmə sürəcində önəminə diqqət çəkir. Türk-tatarların "mədari-ifrixarı bulunan Çingizlərə və